# AZƏRBAYCAN RESPUBLİKASININ REGİONLARINDA OXUCULARA BİBLİOQRAFİK-İNFORMASİYA XİDMƏTİNİN TƏŞKİLİ

**İradə Bayramova**
*Biblioqrafiyaşünaslıq kafedrasının müəllimi,Tarix üzrə fəlsəfə doktoruirade8@rambler.ru*

***Библиотечно- информационных обслуживание читателейв регионах Азербайджанской Республики***
***Резюме:***_В статье анализируются библиотечно-информационных обслуживание читателей в регионах Азербайджанской Республики,о также проявление заботы государства в этой области, о роле библиотек в повышение интеллектуально- культурного развития уровнья населения._
***Oflocation library –information serviceof readersin regions Azerbaijan Republic***
***Summary:*** *İn this article analyses the situation of location of library-information serviseof readers in regions Azerbaijan Republik. At the some trine, in this spector deals with the increasing of libraries becase of development of people`s intellectual-cultural level,the reflection of state`s care to it.*
***Açar sözlər:***_Elektron-biblioqrafik xidmət, kitab, elektron kitabxana, elektron kataloq;_
***Ключевые слова:***_Елоктронные-библиографические услуги, книгы, элоктронный-библиотека, элоктронный каталог;_
***Keywords:*** *Electronic bibliographic services, books, electronic library, electronic catalog;*

## Giriş

Respublikanın sosial-iqtisadi, siyasi və mədəni inkişafında, demokratiyanın və milli özünüdərkin, Azərbaycan dövlətçiliyinin, milli azərbaycançılıq ideologiyasının təbliğində insanların ümumbəşəri sərvətləri olan kitabxanaların qarşısına əhalinin yüksək kitabxana-informasiya xidməti ilə təmin edilməsi kimi mühüm bir vəzifə qoyulmuşdur. İnkişaf etmiş cəmiyyətin tələblərinə uyğun olaraq kitabxanaların əhalinin informasiya təminatını keyfiyyətlə yerinə yetirməsi üçün, təkcə ənənvi kataloqlar deyil, həm də elektron kataloqlar və elektron kitabxanalardan istifadə etmək vacibdir.

Ənənəvi kataloqdan fərqli olaraq elektron kataloq oxucuya axtarılan ədəbiyyat haqqında geniş məlumat-ədəbiyyatın nüsxələrinin sayı, istifadə üçün «azad» nüsxələrin sayı, cari anda fondda olmayan nüsxələrin vəziyyəti, kimdə olması, nə vaxt qaytarılacağı və s. informasiyalar verir. Elektron kataloq kitabxanalararası biblioqrafik informasiya mübadiləsini təmin edir. Elektron kataloq həmçinin hər bir kitabxananın «imicini» formalaşdırır. Kitabxananın yüksək nüfuza və reytinqə malik olması üçün elektron kataloq zəngin məlumat bazasına

və mükəmməl axtarış aparatına malik olmalıdır.Məhz bununla kitabxana coğrafi uzaqlıqdan asılı olmayaraq özünə dünyanın istənilən ölkəsində oxucu cəlb edərək xidmət göstərə bilər. Elektron kitabxanalar müasir dövrün əsas tələbi olub, cəmiyyətin informasiyalaşdırılmasında mühüm əhəmiyyət kəsb edir. Bu səbəbdən elektron kitabxanaların təşkili hər ölkənin informasiya siyasətinin tərkib hissəsinə çevrilmişdir. Elektron kitabxanalar informasiya mübadiləsi sistemlərinin, virtual informasiya mühitinin yaradılmasına, distant təhsilin inkişafına, cəmiyyətin peşə və ümumi mədəniyyət səviyyəsinin artmasına xidmət edir. Onun vasitəsilə oxucular dünyanın istənilən nöqtəsindən 24 saat müddətində kitabxananın informasiya ehtiyatından istifadə edə bilirlər. (3.s.17-19)

**Əsas hissə**

"Kitabxana işi haqqında"Azərbaycan Respublikasının Qanununda kitabxana fondunun ictimai istifadə məqsədi ilə kitabxananın vəzifələrinə uyğun şəkildə formalaşmış çap əsərləri və digər məlumat daşıyıcılarının məcmusundan ibarət olduğu qeyd edilir.Tələbatçıların informasiya tələbatının ödənilməsi üçün kitabxana xidməti abonement, qiraət zalı, kitabxanalararası və beynəlxalq abonement, biblioqrafiya, elmi-texniki informasiya, fərdi və kütləvi, yazılı və şifahi, stasionar və qeyri-stasionar, qiyabi, kompleks vasitələrlə təşkil edilir.Tələbatçılara kitabxana xidməti göstərmək- kitabxana sərvətlərinin,dünya ədəbiyyatı nümunələrinin etibarlı şəkildə toplanması,qorunması və gələcək nəsillərə çatdırılmasından, onların əhali arasında geniş təbliğindən, bəşəri dəyərlərə yiyələnmək, müstəqil və yaradıcıdüşünən vətəndaş yetişdirilməsinə fəali yardım etməkdən ibarətdir. Kitabxanalar tələbatçıların məlumat əldə etmək azadlığını təmin etməli, kitabxana fondlarından tam istifadə etməsi üçün hər cür şərait yaratmalıdırlar (2).

Kitabxana-informasiya sahəsinin gələcək inkişaf perspektivinə böyük önəm verən, Azərbaycan Respublikası Prezidenti 16 yanvar 2019-cu ildə Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq "Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin strukturunun və idarəedilməsinin təkmiləşdirilməsi ilə bağlı tədbirlər haqqında" fərman imzaladı. Həmin fərmanda ölkə Prezidenti Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin fəaliyyətini optimallaşdırmaq, strukturunu və idarə edilməsini daha da təkmilləşdirərək, Mədəniyyət Nazirliyinin tabeliyindəki kitabxanaların ləğv edilməsini və Mədəniyyət Nazirliyinin tabeliyində yeni, mütərəqqi və ölkənin bütün ərazisini əhatə edəcək kitabxana sisteminin yaradılması, habelə mədəniyyət və təhsil xidmətləri göstərən qurumların (mədəniyyət mərkəzləri, klublar, musiqi məktəbləri, rəsm qalareyası və s.) fəaliyyətində səmərəliliyin artırılması məqsədilə təkliflər hazırlanması üçün Komissiya yaradılmasını, yaradılan Komissiyanın beynəlxalq təcrübəni nəzərə almaqla, təkliflərini Azərbaycan Respublikası Prezidentinə təqdim etməsini göstərdi. İnformasiya-kommunikasiya texnologiyalarının imkanları, habelə mövcud tələbat nəzərə alınmaqla, ölkədə kitabxana sisteminin yenidən qurulması, təqdim olunacaq təkliflər əsasında ölkədə yeni kitabxana sistemi formalaşanədək Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin tabeliyindəki mövcud kitabxanaların öz fəaliyyətini davam etdirməsini;



Azərbaycan Respublikasının Nazirlər Kabinetinə Azərbaycan Respublikası Prezidentinin aktlarının bu fərmana uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində Azərbaycan Respublikası Prezidentinə təqdim etməsi üçün göstəriş verilmişdir(4).

"Kitabxana işi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə "Azərbaycan Respublikasının 2019-cu il 19 fevral tarixli 1506-VQD nömrəli Qanununun tətbiqi haqqında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən fərman imzalanmışdır. Qanunun tətbiq edilməsi məqsədi ilə Azərbaycan Respublikasının Nazirlər Kabinetinə Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının "Kitabxana işi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Pespublikasının Prezidentinə təqdim edilməsinə göstəriş verilmişdir(4).

"Azərbaycan Respublikasında kitabxana-informasiya sahəsinin 2008-2013-cü illərdə inkişafı üzrə Dövlət Proqramı" kitabxana-informasiya sahəsinin yeni inkişaf konsepsiyasını əks etdirməklə,informasiya xidmətinin dünya standartları səviyyəsinə çatdırılması,elektron-informasiya fondlarının təşkil olunması,elektron kataloq,elektron kitabxanaların yaradılması və s. işlərinin həyata keçirilməsini nəzərdə tuturdu(1).

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi Kollegiyasının8 noyabr 2018-ci il 6/1 nömrəli qərarı ilə təsdiq edilmiş Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi sistemindəki Mərkəzləşdirilmiş Kitabxana Sistemlərindəki "Mərkəzləşdirilmiş Kitabxana Sistemi haqqında Nümunəvi Əsasnamə"də deyilir: MKS-lərеyni sistemə daxil olan kitabxanaları vahid strukturda özündə könüllü birləşdirəndövlət mədəniyyət sisteminə və dövlətin mülkiyyətinə daxil olan mədəniyyət təsisatıdır. MKS-lər öz fəaliyyətində Azərbaycan Respublikasının Konstitusiyasını, "Mədəniyyət haqqında" və "Kitabxana işi haqqında" Azərbaycan Respublikasının qanunlarını, Azərbaycan Respublikası Prezidentinin fərman və sərəncamlarını, Nazirlər Kabinetinin qərar və sərəncamlarını, Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi haqqında Əsasnaməni, Nazirliyin əmr, qərar, sərəncam və Kollegiya qərarlarını, Bakı Şəhər Mədəniyyət Baş İdarəsi və ya regional mədəniyyət idarəsinin əmr, qərar, sərəncam və digər normativ hüquqi aktları, habelə bu Əsasnaməni rəhbər tutur. MKS-lərin tərkibinə şəhər (rayon) Mərkəzi Kitabxanası,şəhər kitabxana filialları,qəsəbə kitabxana filialları və kənd kitabxana filialları daxildir. MKS-lər hüquqi və mülkiyyət formalarından asılı olmayaraq vətəndaşların habelə bütün əhalinin onun fondundan və xidmətlərindən istifadə etmələrinə imkan verir. MKS-in fəaliyyətinin predmeti-informasiya, elm, mədəni-maarif və təhsil işidir. Bu işə ilk növbədə fondun formalaşdırılması, elmi cəhətdən işlənməsi və mühafizəsi, kitabxanalardan istifadə edənlərə kitabxana-informasiya və sorğu biblioqrafiya xidmətlərinin göstərilmə-

si, kitabxanalararası və Beynəlxalq Kitabxanalararası Abonementin təşkili, kitabxanaların elmi və metodik təminatı daxildir. MKS-də fondun komplektləşdirilməsi, sistemləşdirilməsi, onun mühafizə edilib saxlanılması təmin edilməklə, informasiya tələbatçılarına kitabxana-informasiya, biblioqrafiya, virtual xidmətlər göstərilir. Kitabxana fondlarına daxil olan kitablardan, digər informasiya mənbələrindən, müxtəlif informasiya daşıyıcılarından əhalinin kütləvi istifadəsini təşkil edir. Eyni zamanda ənənəvi və elektron kataloq, kartotekalar, elektron kitabxanalar, informasiyanın əks etdirilməsi, axtarışı və istifadəsi üçün, elektron vasitələri əhatə edən informasiya- axtarış sistemini yaradır. Biblioqrafik göstəriciləri və informasiya nəşrlərini həm müstəqil şəkildə, həm də başqa müəssisələrlə birlikdə hazırlayır və nəşr edir (5).

MKS-lər əhalinin bütün təbəqələrinin kitabxana-informasiya xidmətini həyata keçirməklə, informasiyadan sistemli istifadəni təşkil edir, şəxsiyyətlərin peşə, təhsil, fasiləsiz təhsil və ümumi mədəni inkişafının artırılmasına kömək edir. Kitabxanalar informasiya tələbatçılarının kitabxananın fonduna daxil olan yeni ədəbiyyat haqqında mütəmadi məlumatlandırılmasını, oxucu sorğularının nəzərə alınmasını, sorğuları daha dolğun ödəmək üçün elektron-informasiya daşıyıcılarından geniş şəkildə istifadəsinin təşkil olunmasını, sənəd informasiya resurslarının qorunub saxlanılmasını və yayılmasını təmin edir(5).

Informasiya əsrində durmadan artan sənəd kütləsi içərisində dolğun informasiya almaq üçün informasiya tələbatçıları biblioqrafik xidmətə müraciət edir. Biblioqrafik xidmət bütün kitabxanalarda həyata keçirilir. Bütün digər kitabxanalarda olduğu kimi MKS-də də soraq-biblioqrafiya aparatı biblioqrafik fəaliyyətin əsas bazası hesab edilir. Kompyüter texnologiyası ilə təmin olunmuş kitabxanalarda MKS-in soraq biblioqrafiya aparatının məzmunu daha da zənginləşir.

MKS-də hərbi vətənpərvərlik tərbiyəsinin təbliği ilə bağlı "Yaddan çıxmaz Qarabağ", "Dağlıq Qarabağ" "Qarabağ müharibəsi" adlı kartotekalar, əlamətdar və tarixi günlərə, görkəmli şəxsiyyətlərin yubileylərinə həsr olunmuş kartotekalar yaratmaqla kitabxananın saytında yerləşdirmək, diyarşünaslıqla bağlı materialları rəqəmsallaşdırmaq və onları elektron daşıyıcılara köçürmək, oxucuların sorğuları əsasında biblioqrafik arayışların operativ və keyfiyyətli yerinə yetirilməsinə nəzarət etmək informasiya tələbatının keyfiyyətli ödənilməsinə şərait yaradır. Tələbatçıların ümumi və şəxsi təhsilinə kömək məqsədi ilə "İnformasiya günləri", sərgi-baxış təşkil etməklə kitabxananın xidmətindən istifadəsi təmin edilir.

MKS-lərə daxil olan yeni soraq və biblioqrafik nəşrlərlə tanışlıq, fonda daxil olan yeni ədəbiyyat haqqında tələbatçılara məlumat vermək, avtomatlaşdırılmış kitabxana-informasiya sistemində axtarış aparmaq, elektron resurslarla, kitabxanaların saytı ilə iş vərdişləri aşılamaq, xüsusi ilə region kitab-xanalarında-regionu öyrənmək üçün təşkil edilən tədbirlərdə təsvir olunan xəbərlərin, hadisələrin xroniki ardıcıllığı və xronikanın sonunda ədəbiyyat siyahısının



təqdim edilməsi informasiya tələbatının yüksək keyfiyyətlə həyata keçirilməsində mühüm əhəmiyyət daşıyır.

MKS-də informasiyalar ənənəvi çap məhsulları ilə bərabər elektron formada da təqdim olunur. Kitabxanalar internet şəbəkəsinə qoşulmaqla, tələbatçılar üçün ümumaçıq informasiya məkanı formalaşır. Xidmət prosesində elektron sənədlər və elektron kataloqlar, elektron poçt və s. istifadə olunur. Kitabxanalarda informasiya əsrinin tələblərinə uyğun müxtəlif növlü, məzmunlu sənədləri mühafizə edən elektron informasiya daşıyıcılarının hazırlanması, sistemləşdirilməsi, mühafizə edilməsi vacib yer tutur. Bütün bunlar elektron kitabxanaların yaradılmasında və elktron kitabxana-informasiya təminatının təşkilində istifadə olunur. Ənənəvi kitabxanalar kitabxanalararası abonement, ölkədaxili və beynəlxalq kitab mübadiləsi baxımından sənəd-informasiya sistemi olmuşdur. Elektron kitabxanalar informasiya tələbatçılarının vaxt itgisi olmadan informasiya tələbatının yüksək keyfiyyətlə ödənilməsini həyata keçirir. Belə ki, tələbatçı kitabxanaya gəlmədən istənilən coğrafi ərazidən kitabxananın elektron resurslarından birbaşa istifadə etmək imkanına malik olur. Elektron kitabxanalar vasitəsi ilə qiymətli və nadir nüsxəli ədəbiyyatdan istifadə etmək mümkün olur. Elektron kitabxanalar həmişə açıq olur və bununla da ənənəvi kitabxanalardan daha üstün xidmət keyfiyyətinə malik olur. Lakin elektron kitabxanalarla informasiya tələbatçısının sorğuları yüksək şəkildə həyata keçsə də, bəzən kompyüter sisteminin işi dayandıqda, rabitə xətti ləng və etibarsız olduqda və s. elektron kitabxanalarda ciddi problemlər yarana bilər.

Elektron kataloqlar informasiya sisteminin kitabxanalararası və avtomatlaşdırılmış əlaqələrin yaradılmasında və istfadəsində mühüm rol oynayır. Elektron kataloqların tətbiqi informasiya tələbatçısını biblioqrafik-informasiyanı istənilən vaxtda, istənilən yerdən almaqla kifayətlənmir, həm də müxtəlif kitabxanalarda mövcud olan qiymətli nəşrlərlə tanış edir.

Hazırda kitabxanalar inkişaf etmiş informasiya cəmiyyətinin tələblərinə uyğun olaraq, müxtəlif növ çap məhsullarının saxlayıcısı kimi yox, həm də avtomatlaşdırılmış xidmət sistemini özündə cəmləşdirməklə informasiya tələbatçılarının tələbatlarını yüksək keyfiyyətlə ödəyən informasiya müəssisələri kimi fəaliyyət göstərməlidirlər.

Kitabxanaların saytlarında informasiya istifadəçilərinin maraq dairəsinə uyğun olaraq, materiallar yerləşdirilir: "Yeni ədəbiyyat", "Ən çox oxunanlar", "Elektron nəşrlər", müxtəlif elm sahələri və diyarşünaslıq üzrə məlumat bazaları, kitabxanada keçirilən tədbirlər,regionda baş verən yeniliklər və s. Saytlarda həmçinin, kitabxanaya yeni daxil olmuş kitablar,dövri nəşrlər haqqında da informasiyalar yerləşdirilir. Ölkənin ictimai-siyası və mədəni həyatında baş verən hadisələrə,əlamətdar tarixi günlərə, elm, təhsil, mədəniyyət, incəsənət, iqtisadiyyat və s. sahələrə aid kitabxanalara daxil olan qəzet və jurnallar araşdırılaraq, onların tam mətni elektron kataloqda yerləşdirilir və analitik məlumat bazaları yaradılır. Beləliklə, informasiya tələbatçılarına həm çap formasında, həm dəkitabxanaların saytı vasitəsi ilə operativ məlumat verilir (6).

Respublikanın bütün regionlarında əhalinin informasiya xidmətini həyata keçirən regional Mərkəzləşdirilmiş Kitabxana Sistemləri fəaliyyət göstərir. Hər bir MKS-in tərkibində Mərkəzi kitabxana və onun filialları regionlarda yaşayan əhalinin yüksək keyfiyyətli informasiya xidməti ilə təmin edilməsində mühüm rol oynayır. Ölkənin iqtisadi rayonlarında fəaliyyət göstərən Mərkəzləşdirilmiş Kitabxana Sistemlərində əhalinin informasiya təminatının həyata keçirilməsini bir-neçə rayon MKS-nin nümunəsi əsasında araşdıracağıq:

Gəncə-Qazax iqtisadi regionu üzrə Gəncə şəhərində əsası 1934-cü ildə qoyulmuş MərkəziKitabxananın bazası əsasında 1976-cı ildə Mərkəzləşdirilmiş Kitabxana Sistemi yaradılmışdır. MKS-in nəzdində Uşaq şöbəsi, 25 kitabxana filialı fəaliyyət göstərir. Kütləvi kitabxanaların informasiya resurslarının həcmi 404,3 min nüsxə təşkil edir. Ümumiyyətlə, Gəncə şəhər kitabxanalarının kitabxana fondunun həcmi 3 milyon nüsxədən çoxdur. MKS-də ümumi fondun 192712 nüsxəsi Azərbaycan dilindədir. Mərkəzi Kitabxananın şöbələri belədir: 1) Abonement bölməsi; 2) Oxu zalı; 3) Metodik və biblioqrafiya şöbəsi; 4) Kitabxana-biblioqrafiya proseslərinin avtomatlaşdırılması şöbəsi; 5) İnformasiya – resurs şöbəsi; 6) İncəsənət şöbəsi; 7) Komplektləşdirmə və kitabişləmə şöbəsi; 8) Uşaq şöbəsi (7).

Gəncə MKS-də diyarşünaslığa dair fondların yeni materiallarla zənginləşdirilməsi məqsədi ilə yerli yazıçılarla əlaqə saxlanılır və hər il fonda yeni nəşr edilən ədəbiyyat daxil olur. Mərkəzi kitabxananın Oxu zalında ictimai əsaslarla xidmət göstərən və əhalinin bütün təbəqələrinəpulsuz xidmət göstərən "Hüquqi mərkəz" yaradılmışdır. Mərkəzi Uşaq kitabxanasında da "Uşaq hüquq mərkəzi" yaradılmışdır. Mərkəzdə uşaq oxuculara hüquq ədəbiyyatı təbliğ edilir, onları dünyəvi hüquq mədəniyyəti ilə tanış edirlər. Gəncə MKS-də Azərbaycan regionları üzrə "Gəncə və Gəncəlilər", "Kitab abidələri" adlı məlumat bazaları yaradılmış və MKS-in saytında yerləşdirilmişdir. Mərkəzi kitabxanada şəhərdə nəşr edilən yerli qəzet və jurnallarda dərc olunan diyarşünaslığa dair materialların biblioqrafik uçotu aparılır və elektron versiyası işlənilir. Qərb regionu üzrə metodik mərkəz olan Gəncə MKS-ə yeni daxil olan kitablar İRBİS-64 Avtomatlaşdırılmış Kitabxana İnformasiya proqramı ilə işlənilir. Bu proqrama uyğun olaraq, "Yeni kitablar", "Retro kitablar", "Notlar", "CD, DVD", dövrü mətbuat üçün "Elektron karteteka" və "Diyarşünaslıq" bazaları yaradılmışdır. Gəncə şəhər MKS-də, 2008-ci ildə Amerika Mərkəzi yaradılmışdır. MKS-də əvvəl "Regional kitabxanaların inkişafproqramı" layihəsi, sonra isə "Regional Kitabxanaların Məlumat Mərkəzi" fəaliyyət göstərmişdir. Şəhərdə 1981-ci ildə yaradılmış AMEA-nın Regional Elmi Mərkəzi də fəaliyyət göstərir. Gəncə Mərkəzi kitabxanasının fondunda Elektron kataloq, Virtual kitablar, Resurslar da var. Resurslara "Biblioqrafik göstəricilər", "Biblioqrafik yaddaş", "Fondumuza daxil olan kitabların siyahısı", "Metodiki vəsaitlər" və s. aiddir. Kitabxanaya Dövrü mətbuat, Kitab abidələri, AZLİBNET, Azərbaycan kitabxanaları internetdə, Normativ hüquqi-sənədlər və s. daxil olmuşdur. Kitabxanaya edilən virtual



sifarişlərin sayı-1526 olmuşdur. Gəncə MKS-də 11.04.2019-cu il tarixində görkəmli yazıçı Çingiz Abdullayevin 60 illik yubileyi ilə bağlı tədbir keçirilərək, "Çağdaş Azərbaycan dedektivi" adlı sərgi təşkil edilmişdir. Görkəmli yazıçının əsərlərinin bir-çox dünya xalqlarının dilinə tərcümə edilməsinəzərə çatdırılmışdır. 1952-ci ildə yaradılmış Gəncə MKS-nin 1 saylı filialı da əhalinin informasiya təminatının həyata keçirilməsində mühüm rol oynayır.Kitabxananın 3000 nəfər oxucusu var. MKS-in 2 saylı filialı 1940-cı ildə təşkil edilmişdir. Kitabxananın Nizami rayonunda yaşayan əhalinin informasiya təminatının həyata keçirilməsində çox böyük roluvar.Belə ki,kitabxananın xidmət ərazisində Gəncə Dövlət Universiteti, bir-çox məktəblər və idarə-müəssisələr var. MKS-in 24 nömrəli filialında görkəmli dramaturq, publisist Nəcəf bəy Vəzirovun anadan olmasının 165 illiyi münasibəti ilə tədbir keçirilmişdir.Gəncə MKS-in Uşaq şöbəsi 1946-cı ildə yaradılmışdır.Fondunda ensiklopediyalar, lüğətlər, məlumat kitabları, elmin müxtəlif sahələrini əhatə edən uşaq kitabları və bədii ədəbiyyat üstünlük təşkil edir.Hazırda kitabxananın 22872 nüsxə fondu, 3000 nəfər oxucusuvar.Kitabxanaya gələnlərin sayı 13492 nəfər, kitab verilişi60000 nüsxə olmuşdur.02.04.2019-cu ildə Aprel döyüşləri şəhidlərinin xatirəsinə həsr edilmiş "Aprel döyüşləri-bizim şanlı qələbəmizdir" başlığı altında tədbir keçirilmişdir(7).

Aran iqtisadi rayonuna daxil olan Kürdəmirdə ilk kitabxana 1935-ci ildə təşkil olunub.1979-cu ildə bu kitabxananın bazası əsasında mərkəzləşdirilmişdir. Hazırda MKS-in nəzdində 1 Mərkəzi Kitabxana, 3 şəhər, 2 qəsəbə və 41 kənd kitabxana filialı fəaliyyət göstərir.Mərkəzi kitabxananın 6 şöbəsi var: 1) Oxuculara xidmət şöbəsi oxu zalı ilə birlikdə fondunda olan ədəbiyyat, dövri mətbuat, kataloq və kartateka vasitəsi ilə oxucu sorğularının ödənilməsi işini həyata keçirir; 2) Metodika və biblioqrafiya şöbəsi MKS-in əhatə etdiyi filiallara metodiki xidmət işini həyata keçirməklə, il ərzində aktual mövzulara və yubileyi keçiriləcək şəxslərə, habelə əlamətdarvə tarixi günlərə dair metodik məktub, tövsiyələr hazırlayıb kitabxana filiallarına göndərir; 3) Kitabxana-biblioqrafiya proseslərinin avtomatlaşdırılması şöbəsi elektron kataloq, elektron kitabxana, elektron kartoteka yaradılması işlərini həyata keçirir; 4) İnformasiya–resurs şöbəsi kitabxananın veb-saytının idarə olunmasını, şəbəkənin antivirus proqramının, habelə lokal və internet şəbəkəsinin fəaliyyətini təşkil edir, nəzarət funksiyasını həyata keçirir.Şöbə kitabxananın elektron kitabxanasının yaradılması, nəşrlərin elektron formaya çevrilməsi işini təmin edir; 5) Komplektləşdirmə və Kitabişləmə şöbəsi vahid fondun komplektləşdirilməsi prosesini həyata keçirir. Kitabxana fondu komplektləşdirilərkən ərazi profili, oxucu sorğuları nəzərə alınır. Şöbə yeni daxil olan ədəbiyyatların elmi və texniki cəhətdən işlənilərək kitabxana filiallarına çatdırılmasını təşkil edir; 6) Uşaq şöbəsi aşağı yaş qrupundan olan oxuculara, məktəbli oxuculara kitabxana xidmətini həyata keçirir. Şöbə uşaqların mütaliə bacarıqlarının və mütaliə vərdişlərinin inkişafına, informasiya axtarmaq, seçmək və informasiya ilə işləmək baca-

rıqlarının formalaşmasına,oxu mədəniyyətinin tərbiyə olunmasına kömək edəcək kitabxana fondundan istifadəsinə şərait yaradır.

İnformasiya əsrində yaşadığımız müasir dövrdə informasiya mənbələrindən ötürülən çoxsaylı informasiya resurslarının yaradılması, saxlanılması, yenidən işlənməsi və informasiya istifadəçilərinə xidmət edilməsini təmin edən müasir kitabxanalar cəmiyyət üzvlərinin intellektual potensialının artmasına çox böyük təsir göstərir. Cəmiyyət üzvlərinin informasiya təminatının həyata keçirilməsi,ölkə kitabxanalarının dünya informasiya məkanına inteqrasiya etməsi kitabxana-informasiya sahəsinin inkişafında əsas yer tutur (7).

Bakı şəhərinin Xəzər rayon Mərkəzi kitabxanasında inzibati rayonda yaşayan əhalinin informasiya təminatının həyata keçirilməsi üçün, 2012-ci ildə yaradılmış informasiya -resurs şöbəsində kitabxananın Veb-saytı yaradılmış, lokal və internet şəbəkəsinin fəaliyyəti təşkil edilmişdir. Kitabxanada il ərzində əlamətdar tarixi hadisələr, anım günləri, kitab təqdimatları, o cümlədən "Azərbaycanda insan hüququ vəazadlığı", "Doğma torpaq Qarabağ", "Azərbaycan mənim vətənimdir" və s. kimi tədbirlər keçirilmişdir (8).

Bakı şəhərinin Sabunçu rayon MKS-nin əsası 1904-cü ildə Ramana kəndində qoyulmuşdur. 2011-ci ildən MKS kimi fəaliyyət göstərir. Kitabxanada tələbatçıların sayı 76782 nəfərdir. Mərkəzi kitabxananın 6 şöbəsi var. Kitabxananın bütün şöbələri o cümlədən Metodika və biblioqrafiya şöbəsi filial kitabxanalarına metodikiköməklik etməklə, həm də kitabxana işinə dair aktual problemlər üzrə seminarlar, müşavirələr, elmi-praktik konfranslar keçirir. Kitabxananın fondunun komplektləşdirilməsini, kitabişləmə və kataloq sisteminin təşkilini həyata keçirən komplektləşdirmə və kitabişləmə şöbəsi, mərkəzi kataloq sistemi üzrə ədəbiyyatın sistemləşdirilməsinə, yeni ədəbiyyatın vaxtında filiallara çatdırılmasına nəzarət edir. İnformasiya-resurs şöbəsi kitabxananın Veb-saytının idarə olunması, operativ yenilənməsi, lokal və internet şəbəkəsinin fəaliyyətini təşkil edir, nəzarət funksiyasını həyata keçirir. Kitabxanaya daxil olan informasiya mənbələrini kitabxananın saytında yerləşdirir və tələbatçıların istifadəsinə verir. Mərkəzi kitabxanada mütəmadi olaraq, müxtəlif tədbirlər, metodik vəsaitlər, katotekalar, stendlər və sərgilər təşkil olunur. Diyarşünaslıq mövzusunda "Odlar yurdu-Vətənim Azərbaycan", "Sabunçu-qədim neft diyarı", hərbi vətənpərvərlik mövzusunda "Azərbaycanın döyünən ürəyi-Qarabağ" adlı sərgilər, Aprel döyüşündə şəhid olmuş qəhrəman oğullarımızın şəkillərindən ibarət "Qəhrəman Azərbaycan oğulları" adlı stend, ümummilli lider Heydər Əliyevə həsr olunmuş "Xalq üçün yaşayan ömür", yeni alınmış kitablardan ibarət "Dünya ədəbiyyatından seçmələr", uşaqlara həsr olunmuş "Bizim nağıl boğçamız" adlı sərgiləri göstərmək olar (9).

**Nəticə**

MKS-dəinformasiyalar ənənəvi çap məhsulları ilə bərabər elektron formada da təqdim olunur. Kitabxanalar internet şəbəkəsinə qoşulmaqla, tələbatçılar üçün ümumaçıq informasiya məkanı formalaşır. Xidmət prosesində elektron sənədlər və elektron kataloqlar, elektron poçt və s. istifadə olunur. Kitabxanalarda informasiya əsrinin tələblərinə uyğun müxtəlif növlü,məzmunlu sənədləri mühafizə edən elektron informasiya daşıyıcılarının hazırlanması, sistemləşdirilməsi, mühafizə edilməsi vacib yer tutur. Bütün bunlar elektron kitabxanaların yaradılmasında və elktron kitabxana-informasiya təminatının təşkilində istifadə olunur. Ənəəvi kitabxanalar kitabxanalararası abonement, ölkədaxili və beynəlxalq kitab mübadiləsi baxımından sənəd-informasiya sistemi olmuşdur. Elektron kitabxanalar informasiya tələbatçılarının vaxt itgisi olmadan informasiya tələbatının yüksək keyfiyyətlə ödənilməsini həyata keçirir. Belə ki, tələbatçı kitabxanaya gəlmədən istənilən coğrafi ərazidən kitabxananın elektron resurslarından birbaşa istifadə etmək imkanına malik olur. Kitabxana kataloqunun hər kitabxananın fondunun məzmununu əhatə etdiyi məlumdur. Bu baxımdan deyə bilərik ki, kitabxana-informasiya tələbatçılarına xidmət səviyyəsi də məhz kataloqların məzmununun daha zəngin olmasından da asılıdır. İnformasiya əsrində istər-istəməz informasiyaların artması və köhnəlməsi, ənənəvi kitabxanaların elektron kataloqlarla əvəz edilməsi prosesini sürətləndirir. Elektron kataloqların ənənəvi kataloqlardan fərqli olaraq tələbatçının sorğularının daha dolğun həyata keçirilməsini təmin etməsidir. Eyni zamanda elektron kataloqlar kitabxana fondlarının, informasiya mənbələrinin daha etibarlı qorunmasını da təmin edir. Elektron kataloqlar bu gün artıq bütün dünyada tətbiq olunan UNİMARK formatı əsasında həyata keçirilir. Qeyd etmək lazımdır ki, ölkəmizdə yalnız bir-neçə kitabxana istisna olmaqla, iqtisadi regionlarda o cümlədən ölkənin bir-çox kitabxanalarında bu proses ləng gedir. Ölkə kitabxanalarında elektron kataloqların yaradılması gələcəkdə elektron kitabxanaların yaradılmasına və əhalinin informasiya təminatının daha dolğun həyata keçirilməsinə təkan verəcəkdir (10).

**Ədəbiyyat**

1. «Azərbaycan Respublikasında kitabxana-informasiya sahəsinin 2008-2013-cü illərdə inkişafı üzrə Dövlət Proqramı» // Kitabxanaşünaslıq və biblioqrafiya: elmi-nəzəri, metodiki və təcrübi jurnal.- 2008.-№ 2.-S.6-29.
2. "Kitabxana işi haqqında" Azərbaycan Respublikasının Qanunu//Azərbaycan.-1999.-14 mart.
3. Xələfov A.A., Qurbanov A.İ. Kitabxanaların kompüterləşdirilməsinin əsasları: Dərslik. İkinci nəşr, əlavə və dəyişikliklərlə.-Bakı:"Bakı Universiteti Nəşriyyatı", 2016.-328 s.
4. mct.qov.az/az/ ümumi-xeberler.
5. mct.qov.az/medias/media/other/419/kitabxana-esasname.
6.http://anl.az/down/enene&innovasiyalar.
7.http://www.google.com/search.
8. http://khazar.cls.az/more/text/
9.http://sabunçu.cls.az/more/text/
10.http://cls.az/front/51/az/more/text/